**01.12.2022: xəbər**

**"Build your future!" Project Participants at Khazar University**

On November 27, 2022, the event of "Build your future!" Youth Support Project dedicated to the values of science and responsibility took place at the Neftchilar campus of Khazar University.

The event started with the speech of the rector of the University, Irada Khalilova, and a presentation about the university. Graduates of the project "Build your future!" who study at Khazar University, shared their impressions about the university and student life with the enrollees.

The event continued with the speech of professor, academician Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees. He spoke about the establishment of Khazar University, the role of science in human life, and the responsibility of every person to his homeland, and presented several books authored by him to the library of the project.

Trainer and writer Joshgun Karimov and human resources specialist Khagani Safarov also spoke at the event. A university tour was organized for the participants.

Since 2014, "Build Your Future!" has been operating with the support of the Ministry of Science and Education and the sponsorship of a number of companies. The main goal of the Youth Support Project is to back and contribute to the acquisition of higher education by young people and thereby bring healthy young people with high intelligence and ethical values to the society of Azerbaijan.

Detailed information about the project can be obtained from the website www.geleceyiniqur.az.

**“Gələcəyini Qur!” Layihəsinin iştirakçıları Xəzər Universitetində**

2022-ci il noyabrın 27-də Xəzər Universitetinin Neftçilər kampusunda “Gələcəyini Qur!” Gəncliyə Dəstək Layihəsinin elm və məsuliyyət dəyərlərinə həsr olunmuş tədbiri baş tutdu.

Tədbir universitetin rektoru İradə Xəlilovanın çıxışı və universitet haqqında təqdimat ilə başladı. Xəzər Universitetində təhsil alan “Gələcəyini Qur!” layihəsinin məzunları abituriyentlərlə universitet və tələbəlik həyatı haqqında öz təəssüratlarını bölüşdülər.

Tədbir Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor, akademik Hamlet İsaxanlının çıxışı ilə davam etdi. O, Xəzər Universitetinin qurulmasından, elmin insan həyatında rolundan və hər insanın vətəni qarşısında olan məsuliyyətindən söz açdı və layihənin kitabxanasına müəllifi olduğu bir neçə kitab hədiyyə etdi.

Tədbirdə spiker qismində, həmçinin təlimçi və yazıçı Coşqun Kərimov və insan resursları üzrə mütəxəssis Xəqani Səfərov çıxış etdilər. İştirakçılar üçün universitet turu təşkil olundu.

2014-cü ildən Elm və Təhsil Nazirliyinin dəstəyi və bir sıra şirkətlərin sponsorluğu ilə fəaliyyət göstərən "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsinin əsas məqsədi gənclərin ali təhsilə yiyələnməsinə dəstək, töhfə vermək və bununla Azərbaycan cəmiyyətinə yüksək intellekt və etik dəyərlərə malik sağlam düşüncəli gənclər qazandırmaqdır. Layihə haqqında ətraflı məlumat www.geleceyiniqur.az veb-saytından əldə oluna bilər.


BİRLİKDƏ AZƏRBAYCANIN GƏLƏCƏYİ ÜÇÜN SƏRMAYƏ QOYURUQ
TOGETHER INVESTING FOR AZERBAIJAN'S FUTURE
GƏLƏCƏYİNİ QUR!
GƏNCLİYƏ DƏSTƏK LAYİHƏSİ
AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
www.geleceyiniqur.az
Khazar University
Xəzər Universiteti


Xəzər
Universiteti


Xəzər
Universiteti